# Ordumuzun Polad generalı

**Allah yolunda öldürülənləri (şəhid olanları) əsla ölü zənn etmə! Xeyr, onlar öz Rəbbi yanında diridirlər. Onlara (cənnət nemətlərindən) ruzi əta olunur. Onlar Allahın öz mərhəmətindən onlara bəxş etdiyi nemətə (şəhidlik rütbəsinə) sevinərək arxalarınca gəlib hələ özlərinə çatmamış (şəhidlik səadətinə hələ nail olmamış) kəslərin (axirətdə) heç bir qorxusu olmayacağına və onların qəm-qüssə görməyəcəklərinə görə şadlıq edirlər. Onlar Allahdan gələn nemət və mərhəmətə görə həm də Allahın möminlərin mükafatını puça çıxarmayacağına görə sevincək olurlar.**

***Əl-İmran 160 və 170.171.***

Müqəddəs Çanaqqala savaşının qazilərindən birinin çoxdan oxuduğum xatirələri bu gün ən gərəkli anda yaddaşımı oyatdı. "Biz Aslanlar kimi döyüşürdük. "Allah, Allah" qışqıraraq yağı düşmənə qarşı ülvi, ruhani bir hisslə, duyğularla can qorxusundan çox-çox ucada duraraq döyüşürdük. Döyüşçülər təşviq və təşci kəlmə gözləmədən müqəddəs torpaq uğrunda canlarından keçirdilər... Biz şəhidlər verdik, bəzilərimiz əlsiz, ayaqsız qaldıq - qazi olduq, Vətən yolunda... Şükür, Vətən yaşadı"...

Vətəni qorumaq üçün can əsirgəməmək Allah vəhyidir. Hər kəsə qismət olmaz.

Bəli, Vətəni oğullar qoruyur. Oğullar doğulduğu torpağa da, anaları da Tanrı qismətidir, Tanrı ərməğanıdır. Oğullar həm də düşmən çəpəri, sərhəd sipərləridir. Vətən üçün Ana üçün, hər qeyrətli oğulun varlığı qürur yeri, güvən hissi, yoxluğu isə hər birimiz üçün çox ağır itki, həyati dayağımızın zəifləməsi deməkdir. Xüsusilə hərb sahəsində min bir zəhmətlə formalaşan, dəmir iradəli, qorxmaz, cəsur, hüdudsuz vətənpərvər, yüksək peşəkar olan general Polad Həşimov kimi oğulların yerini kiminsə əvəz etməsi üçün illər lazım gələcək. Belə hərbiçilər anadan elə hərbçi doğulurlar. Uşaqlıqdan xarakterlərindəki əzmkarlıqları, mərdlikləri, Vətənə, torpağa münasibətləri ilə seçilirlər. Uşaq ikən hətta həyətdə dostları ilə oynayanda belə, seçilərək, "dava-dava" oyununda rəhbər, komandir roluna üstünlük verirlər. İllər keçir, onlar həqiqətən, xüsusi missiya üçün göndərildiklərini öz əməlləri və fəaliyyətləri ilə təsdiq edirlər.

Keçən ilin aprel ayında "Kaspi" Liseyinin şagirdlərinin "Aprel şəhidlərinin anım günü"nə həsr olunmuş, Musiqili Dram teatrının səhnəsində yüzlərlə tamaşaçı qarşısında Aprel döyüşlərinin şəhid və qaziləri, eləcə də döyüş komandirləri hörmətlə anılanda heç vaxt ağlımıza gəlməzdi ki, növbəti itkimiz hamımızın sevgi və hörmətlə andığı, o döyüşlərdə əsas postlar uğrunda qəhrəmanlıq, şücaət göstərərək, istədiyi qələbəyə nail olan general qardaşımız Polad Həşimov olacaq. O tədbirdə Şəhidlərin rollarını ifa edənlər xəyalən səhnəyə çıxaraq Vətəni bizlərə bir daha əmanət verdilər. Qazilərimiz, şagirdlərə Vətənə, onun şəhid və qazilərinə göstərilən bu sevgi və saygıya görə təşəkkür etdilər. Döyüşdə, Vətənə müqəddəs xidmətin ən həllledici məqamında bizə qələbə sevinci yaşadan Polad Həşimov kimi şücaətli igidlərə, onun xidmət komandasına dərin ehtiram və sevgilər göndərildi...

Çox təəssüf, bu gün Aprel döyüşlərində həlledici hücumun komandiri kimi cəsurluğu, qorxmazlığı ilə yanaşı, əsgərlərinə qəhrəmanlıq nümunəsi olan, onlara qələbənin əsl sirrini öyrədən general qardaşımız şəhid oldu... Onun ən böyük arzusu Qarabağı azad görmək idi... Sözsüz ki, bu, hər bir generalın arzudur. O, bu arzusunun reallığına qovuşa bilmədiyi üçün nisgili çəkilməzdir.

Qarabağ itkisindən sonrakı həyatımızda mən hər dəfə hansı bir ziyalının, hərbiçinin ölüm xəbərini eşidəndə, torpaqlarımızın geri alınmadığını görmədən dünyadan köçdüyünə görə o şəxs üçün təəssüflə, yana-yana heyfislənirəm. Onsuz da insan oğlu bu dünyaya Haqdan gəlib və Ona da dönəcək... Uğrunda mübarizə apardığı torpaq itkisində qələbənin əldə olunmasını görmədən, sevincini yaşamadan şəhid olmağın kədəri həm onun silahdaşlarını, ailəsini, elə biz soydaşlarını da hər zaman göynədəcək. Ona görə Allah qələbə sevinci üçün bizə ömür deyil, səbir deyil, möhlət versin. Gördüyüm, tanıdığım, hər bir soydaşımız, bütövlükdə xalqımız bu itkini ən əziz ailə üzvünü itirmiş kimi qəbul etdilər. Hər bir Azərbaycan ailəsinin şəhidi olan Polad Həşimov kimi generalın itkisi hamımız üçün çox ağırdır, çəkilməzdir. Bu, bir ailənin itkisi, şəhidi deyil. Azərbaycan xalqının, Azərbaycan dövlətinin döyüş bölgəsində ümid qalası və istinad yeri kimi qəbul etdiyi qəhrəman generalımızın itkisidir.

Elə oğullar var ki, onlar bir ailə üçün dünyaya gəlirlər. Elə oğullar da var ki, el üçün, xalq üçün, dövlət üçün Tanrı ərməğanı kimi mövcud olurlar və millətin, xalqın taleyüklü məsələlərində öz missiyalarını şərəflə yerinə yetirərək, tarixə çevrilirlər. Döyüş səngərində əsgəri ilə yanaşı vuruşan Polad Həşimov kimi...

Heydər Əliyev adına Ali Hərbi Məktəbin, eləcə də Türkiyə Hərbi Akademiyasının məzunu olması, hərbi biliklərlə yanaşı tariximizi, ədəbiyyatımızı dərindən mənimsəməsi onu dövlətin, millətin generalı olmağa aparan yolunun ilk pillələri kimi xatırlanır... Bəli, Vətən sevilməndə bütövlüklə, var olan hər neməti ilə sevilir və qoruması uğrunda canını əsirgəməmək hisslərinədək ucalır. Bu mənada Polad Həşimovu MÜDRİK GENERAL deyə xatırlasaq daha düzgün olar. Əmir Teymurun müdrikliyi, şücaəti, qəhrəmanlığı ilə birləşməsi onun bütün döyüşlərdən qəhrəman, qalib kimi çıxmağına yol açırdı. Əmir Teymur əsgərlərini övladı kimi sevirdi, tənbeh edəndə belə övladı kimi tənbeh edirdi. Hətta qələbəsinin sirrini əsgərlərinə bəslədiyi müdrik münasibəti ilə bağlayırdı: "Mən onları süfrəmin ətrafında oturtdum, onlarla birlikdə süfrəyə əl uzatdım, onlar da mənim və uğrunda mübarizə apardığım ideyalara görə canlarını əsirgəmədilər" deyirdi. Əmir Teymur hər əsgərini itirəndə gecələr əsgərləri yatarkən dağ başına çıxaraq, qurd kimi huy çəkər, həlak olan, övlad kimi sevdiyi əsgərinin öcünün alınmasına qurd andı içərmiş.

Bu gün əsgərləri bu itkini "Ata General" itkisi kimi qəbul etməsi "əsl milli general necə olmalıdır" düsturunu açır. Polad Həşimov döyüş zamanı əsgərlərindən də öndə durdu. Bu, onun əsgərlərinə övlad münasibətinin təcəssümü idi. Atası yanında olan uşaq, komandiri, generalı öndə olan əsgər arxalı, güclü hiss edər özünü... Bizim generalımız bu güvənc hissini əsgərlərinə içindəki Vətən sevgisinin təhriki ilə ötürürdü. Onun Vətən, torpaq sevdalısı olması peşə, vəzifə borcundan irəli gələn çox məqama şərəf gətirdi. Belə qəhrəmanlar özünün, ailəsinin taleyini düşünmədən ali eşqin, vətən eşqinin çağırışına doğru gedərək, şəhidlik zirvəsinə ucalırlar. Qəhrəmanlığın ictimai əhəmiyyətini, məzmununu canları, qanları ilə bizə çatdırırlar.

Bir anlıq fəaliyyətləri ilə bağlı əldə etdiyi, Azərbaycan dövlətinin onun fəaliyyətinə verdiyi təltiflərə nəzər salaq:

Polad Həşimov 2003-cü ildə mayor rütbəsində olarkən Prezident Heydər Əliyevin Sərəncamı ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

2009-cu ildə polkovnik-leytenant Həşimov Prezident İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalına layiq görülüb. 2014-cü ildə III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

2016-cı ildə Aprel döyüşləri zamanı Polad Həşimov Talış kəndi istiqamətində döyüşlər zamanı göstərdiyi qəhrəmanlığa görə Prezident İlham Əliyevin sərəncamı ilə II dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülüb. O, Aprel döyüşlərinin qəhrəmanı hesab edilirdi. Talışdağ istiqamətində mövqeləri gücləndirərək açıq döyüşə girib, düşmən tərəfin onlarla əsgərini məhv etmişdi.

2019-cu il iyunun 24-də Prezident İlham Əliyevin Sərəncamı ilə Polad Həşimova general-mayor hərbi rütbəsi verilmişdi.

Ən vacib məqam odur ki, general Polad Həşimov bütün Azərbaycan əsgərlərinə nümunə, onlar üçün ciddiyyət və rəşadət simvolu kimi xatırlanır. O, əsgərləri ilə səngərləri bölüşən, döyüş meydanın həyəcanını, qəhrəmanlığı, qorxmazlığı ilə yox edən əsl general kimi ruhunu, xarakterini davamçılarına ötürə bildi. Onun Vətən eşqi, alınmayan torpaq öcü qarşısında qələbə gününədək əsgərləri ilə səngər həyatı yaşamasına and içməsi, hətta şəhidliyindən sonra belə, bizə, eləcə də əsgərlərinə qoyub getdiyi yüksək mənəviyyat dərsidir.

Aprel döyüşlərində şəhid olan Raquf Orucovun yaxın dostu kimi onların qanlarının yerdə qalmayacağına, qələbəyə doğru bütün güc və hərbi biliklərini səfərbər etməyə söz vermişdi. Onların qələbə arzularının həyata keçməsində can əsirgəməməyə and içmişdi. Təəssüf... Qələbə gününün sevincini yaşamadan şəhid olması, bütün soydaşlarını göyüm-göyüm göynətdi.

Tanıyanlar, əsgəri olmuş insanlar onun bir mərdlik, qorxmazlıq, cəsurluq məktəbi olduğunu qürurla qeyd edirlər. Onun qeyri-adi hərbi biliyə, intuisiyaya, hərbi taktika bacarığına malik olmasını, ən başlıcası isə əsgərlərinə doğma övlad sevgisi ilə yanaşmasını məhəbbətlə qeyd edirlər. Belə münasibətlərin, duyğuların könlündə taxt qurduğu Polad Generalın döyüş meydanından uzaqdan əsgərlərinə əmr göndərməsi sözsüz ki, mümkün deyildi. Əsgərlərinin dediyinə görə onlarla görüşəndə "Öncə Vətən" deyib, hərbi təlim məsələlərinə, izahatlara başlayanda hər kəsi bir anda səfərbər etmək bacarığı ona əsgər rəğbətini artırırdı.



Qarabağ döyüşlərində ilk generalımızı itirməyimiz hər bir soydaşımızın ürəyində nisgili dərinləşdirdiyi kimi, qələbə döyüşləri üçün daha da ürəkləndirdi. Yüzlərlə, minlərlə gəncimiz hərbi səfərbərlik üçün müraciətlərə başladı. Xalqımızın Polad Generalı ölümü ilə belə, xalqı qələbəyə inandırdı.

Generalın dəfni zamanı yeniyetmə oğlunun söylədiyi "Vətən sağ olsun!" fikri atasının "Öncə Vətən" şüarının dolğun ifadəsi idi. Analar anası, xanımlar xanımı Səmayə xanımın "beş ay idi evə gəlmirdi" sözləri ürək dağlasa da, mərd oğul anası olması təsəlli, doğmalarına, onu sevənlərə toxtaqlıqdır

Ön cəbhəni ilk keçilməz ev bilərək, təhlükənin yaxınlığını hiss etdiyindən ailəsinə baş çəkə bilməyən, hərbi görəvin, torpağın hər şeydən müqəddəs olduğunu soydaşlarımıza dərs, hərbiçilərimizə isə müqəddəs tapşırıq kimi ötürən generala eşq olsun!

Şəhid və şahid adı uca Allahın adları sırasında yer alaraq dərin mənanı özündə ehtiva edir. Əl İmran surəsinin 18-ci ayəsində deyilir: "Allah şahidlik etdi ki, Özündən başqa heç bir Tanrı yoxdur. Mələklər və haqq - ədalətdən ayrılmayan elm sahibləri o mütləq qüvvət, hikmət sahibindən başqa bir Tanrı olmadığına şahidlik etdilər".

Bəli, ordumuzun Polad Generalının şəhidliyinə ilk olaraq Allah şahidlik etdi, Vətən sevdalısı, torpaq, yurd şəhidini cənnətlə müjdələdi. İnanırıq ki, cənnətdə qərar tutan ruhunu davamçısı olduğu əsgərləri tezliklə zəfər qələbəsi ilə sevindirəcəklər.

Cənnətin mübarək, səngərimizin Polad generalı!

**Sona VƏLİYEVA**
**Filologiya elmləri doktoru,**
**Əməkdar jurnalist, şair**